


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

23 fevral 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 8 (3622)


# AZƏRBAYCAN DİPLOMATİYASININ MÜNHEN ZİRVƏSİ

Ötən həftə keçirilən 59-cu Münhen Təhlükəsizlik Konfransı Azərbaycanın həm qlobal enerji, həm də ümumən təhlükəsizliyin, davamlı sülhün təmin edilməsindəki yerini bir daha aydın şəkildə göstərdi.

Məsələ ondadır ki, enerji ilə etibarlı təminatın milli təhlükəsizlik məsələsinə çevrildiyi indiki dövrdə güvənilən qaz və neft təchizatçısı mövqeyini əldə edən ölkəmizin ümid qapısını döyənlərin sayı artıb. Artıq bir ili tamam olmuş Ukrayna müharibəsi Avropa məkanını enerji böhranı ilə üz-üzə qoyduğuna görə alternativ qaynaqlar, boru-enerji xətləri, təhlükəsiz daşınma kimi problemlər hər zamankından fərqli və ciddi qayğılar doğurub Hazırkı qış mövsümündə vətəndaşlarına enerjiyə qənaət etməyi tövsiyə edən avropalı hökumət rəhbərləri müharibənin nə qədər davam edəcəyini və ya sonda hansı hərbi-siyasi nəticələr doğuracağını dəqiq söyləyə bilməsələr də, post-müharibə zamanı gələndə belə enerji təhlükəsizliyinin bir daha əvvəlki məcrasına yönəlməyəcəyini bilməmiş deyillər. Əlbəttə, əgər daha etibarlı tədarükçülərlə əməkdaşlığı gücləndirməsələr.

Məhz belə həssas şəraitdə Azərbaycanın qlobal enerji təhlükəsizliyi prosesindəki yeri və rolu yada düşməyə bilməzdi. Görünür elə buna görə idi ki, 59-cu Münhen Təhlükəsizlik Konfransında enerji təhlükəsizliyi məsələsinə həsr olunmuş "dəyirmi masa"da Prezident İlham Əliyevin iştirakına və söylədiyi fikirlərə böyük önəm verilirdi. Ötən il Avropaya 22,6 milyard kubmetr təbii qaz ixrac etmiş Azərbaycanın dövlət başçısı orta və uzunmüddətli perspektivdə ölkəmiz tərəfindən irəli sürülən "Cənub qaz dəhlizi"nin genişləndirilməsinin əsas hədəf kimi müəyyən edildiyini bəyan etməklə, enerji təhlükəsizliyi məsələsində güvənilən tərəfdaş olaraq qaldığımızı sərgilədi. İmzası qədər sözü də keçərli lider kimi beynəlxalq siyasətdə tanınan Prezident İlham Əliyev Avropadan olan həmkarlarına, hökumət başçılarına ölkəmizin dünyanın gələcək düzənində də yerini göstərmiş oldu. Prezidentimiz qeyd edib ki, 2027-ci ilədək TAP-la qaz nəqlinin indiki 11 milyard kubmetrdən 20 milyard kubmetrə, TANAP-la isə 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.



Məlum olduğu kimi, yaxın gələcəkdə həmçinin ölkəmizdən Avropaya elektrik enerjisinin ötürülməsi gündəlikdədir. "Dəyirmi masa"da buna toxunan Prezident İlham Əliyev deyib ki, Azərbaycanda bu istiqamətdə artıq bir sıra layihələr həyata keçirilir, həmçinin 25 qiqavatadək enerji istehsalı ilə bağlı müxtəlif sənədlər imzalanıb.

Deməli, Azərbaycanın istehsal etdiyi "yaşıl enerji"nin daxildə istehlak edilməklə yanaşı, orta və uzunmüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə də töhfə verəcək. Azərbaycanın isə bundan qazancı enerjidən gələn gəlirlərin artması, eləcə də dünyada siyasi nüfuzunun daha da yüksəlməsi, əsas söz sahiblərindən birinə çevrilməsi anlamına gəlir.

Konfransında Prezident İlham Əliyevin və Ermənistanın baş nazirinin iştirakı ilə keçirilən görüşdə, o cümlədən plenar iclasda münasibətlərin normallaşdırılması ətrafında müzakirələr də aparıldı. Bu görüşlər enerji sahəsində olduğu kimi, bölgədə, dolayısı ilə dünyada davamlı sülhün təmin edilməsində Azərbaycanın "özünü göstərməsi" üçün növbəti fürsətin yaranması demək idi və Prezident İlham Əliyev dünya ictimaiyyətinin gözü qarşısınada məharətlə erməni yalanlarını ifşa edərək, mümkün sülh müqaviləsində öz şərtlərini qətiyyətlə diktə etdi. Bəyan olundu ki, Qarabağ məsələsi hər hansı bir formada Azərbaycanla Ermənistan arasında imzalanacaq sazişə daxil edilməyəcək. Ermənistan tərəfinin Laçın yolunun bağlanması ilə bağlı iddialarına gəldikdə isə Prezident İlham Əliyev bu mövzu ətrafında da Paşinyanın yalanlarını faktlarla ifşa etdi.

Qeyd etməliyik ki, Cənubi Qafqazda sülhü bərqərar etmək üçün konkret siyasi iradə ortaya qoyan və bu istiqamətdə mühüm addımlar atan Azərbaycan Prezidentinin adıçəkilən konfransdakı gündəliyini bölgədə barışığa və qalıcı sülhə nail olmaq üçün görüləcək işlər təşkil edirdi. Münhendə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü bu mənada Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqların və Brüssel sülh prosesinin davam etdirildiyini təsdiq edirdi.

"Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda İlham Əliyev qeyd etdi ki, Azərbaycan Minsk qrupunun nəticə əldə etməsini, BMT Təhlükəsizlik Şurasının öz qətnamələrinə hörmət etmələrini gözləyirdi: "Lakin biz heç bir hərəkətin olmadığını gördük və ümumi fikir bundan ibarət idi ki, bu münaqişə dondurulmuşdur. Beləliklə, biz onun dondurulmadığını sübut etdik. Biz ləyaqətimizi, ərazi bütövlüyümüzü və ədaləti bərpa etmək, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün döyüşməli, 3 min həyatı qurban verməli olduq".

Sadəcə, Qarabağda bugünkü vəziyyəti və ya oradakı erməni icması ilə əlaqələrimizi kontekstdən çıxararaq 30 illik işğalı, Livan böyüklüyündə ərazinin tamamilə xarabalıqlar içində olduğunu unutmamalı olduğumuzu söyləyən İlham Əliyev vurğuladı ki, bu, yadplanetlilər tərəfindən edilməyib, gəlib bizim torpağımızı işğal etmiş, bir milyon azərbaycanlını evindən didərgin salmış, 67 məsciddən 65-ni dağıtmış, onları təhqir etmiş qonşularımız tərəfindən edilib.

Beləliklə, Münhendən siyasi dividentlərlə qayıdan Azərbaycan diplomatiyasının uğurlarını tarix, ola bilsin, elə Münhen zirvəsi kimi yazacaq.

# AZƏRBAYCAN VƏ QAZAXISTAN RESPUBLİKALARININ DAXİLİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA MEMORANDUM İMZALANDI

Fevralın 22-də Qazaxıstan Respublikasının daxili işlər naziri, polis general-polkovniki Marat Axmetjanovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə iki günlük rəsmi səfərə gəlib.

Nazir Marat Axmetjanov və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarını və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



Qonaqları salamlayan nazir V.Eyvazov bu səfərin iki dost ölkənin daxili işlər orqanları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladan nazir hər iki dövlət başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan DİN-ləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

*Ardı 2-ci səhifədə.*

# AZƏRBAYCAN VƏ QAZAXISTAN RESPUBLİKALARININ DAXİLİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA MEMORANDUM İMZALANDI

*Əvvəli 1-ci səhifədə.*



Qazaxıstan Respublikasının daxili işlər naziri, polis general-polkovniki Marat Axmetjanov səmimi qəbula və yüksək qonaqpərvərliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirərək ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, həyata keçirilən islahatlar barədə nazir V.Eyvazova məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyini bildirib.

Görüş zamanı nazirlər "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında Memorandum"u imzalayıblar.

Qəbulda ölkəmizin Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ağalar Atamoğlanov, Qazaxıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimov və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Qazaxıstan Respublikasındakı nümayəndəsi, polis polkovnik-leytenantı Ənvər Zöhrabbəyli iştirak ediblər.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinə, Polis Akademiyasına, Təhlükəsiz Şəhər Xidmətinə və "102 – Zəng Mərkəzi"nə gedərək həmin qurumların fəaliyyəti ilə yaxından tanış olublar.

*Zeyni Hüseynov,*
*polis baş leytenantı*

# Bizə yazırlar...

Sosial şəbəkədə təhqir olunmasıyla əlaqədar DİN-nin Facebook səhifəsinə müraciət edən Bakı şəhər sakini, müğənni Nura Suri şəxsi İnstagram səhifəsinin hekayə bölümündə Azərbaycan Polisinə təşəkkür videosu paylaşıb. Paylaşımında qeyd edir: "Müraciətimə tez bir zamanda, operativ baxıldı və məni təhqir edən şəxs qısa zaman kəsiyində tapıldı. Azərbaycan Polisinə, ələlxüsus da Bakı Şəhər Baş Polis İdarəsinin şəxsi heyətinə dərin minnətdarlığımı bildirirəm."

Digər məktubu isə Ayelin Zöhrəbova yazıb. O məktubunda etdiyi müraciətə operativ baxılaraq probleminin tez bir zamanda aradan qaldırılmasında və hüquqlarının bərpa olunmasında göstərilən köməkliyə görə DİN İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin şəxsi heyətinə minnətdarlığını ifadə edir.

Sosial şəbəkə istifadəçisi Aygün Əliyeva isə ona qarşı edilmiş dələduzluq faktıyla əlaqədar etdiyi müraciətə tez bir zamanda baxılaraq ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə Nəsimi RPİ-nin 22-ci Polis Şöbəsinin şəxsi heyətinə minnətdarlıq ifadə edir.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Xocalını unutmuruq, unutmarıq

1992-ci ilin qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Həmin il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etdilər.




Əvvəlcə şəhər dörd tərəfdən erməni qoşunlarıyla əhatə olunmuş, sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü və amansız atəş açılmış, az bir vaxt ərzində şəhərdə yanğın baş vermiş, şəhər tamamilə alova bürünmüşdür. Şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur olmuşlar. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Bir gecənin içərisində qədim Xocalı yerlə-yeksan edilmişdir.

Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin — qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyil.

Azərbaycan xalqı və onun dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır da.

Ümummilli lider Heydər Əliyev 1994-cü ilin martın 1-də bu haqda xüsusi Fərman verib, Milli Məclisin qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunub.

Xatırladaq ki, Xocalı soyqırımı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə 2008-ci ildən "Xocalıya Ədalət" beynəlxalq kampaniyası keçirilir.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Gəncləri qorumaq gələcəyi qorumaqdır



**Şirvan şəhəri 21 saylı tam orta məktəbdə "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib.**

Tədbirdə şəhər İcra Hakimiyyətinin, Şirvan Şəhər Polis Şöbəsinin və Dövlət Təhlükəsizliyi Xidmətinin Şirvan Şəhər Şöbəsinin rəhbərliyi, Şirvan şəhər prokuroru, şəhər ərazisində yerləşən 6 məktəbin pedaqoji heyəti və yuxarı sinif şagirdləri iştirak ediblər.

Görüşdə çıxış edən **Şirvan Şəhər Polis Şöbəsinin rəisi, polis polkovniki Füzuli Əhmədov** və digərləri dövrümüzün ağır bəlasına çevrilən narkomaniyanın insan sağlamlığı üçün yaratdığı təhlükələrdən, asılılıqlardan, eləcə də mənəvi aşınmadan danışıb. Şöbə rəisi qeyd edib ki, şəhər polisi narkotik vasitələrin alveri ilə məğul olanların tutularaq məsuliyyətə cəlb edilməsi istiqamətində əməliyyat tədbirləri keçirməklə yanaşı, davamlı olaraq aparılan maarifləndirmə işi ilə gəncləri "ağ ölüm" bəlasından qorumağa çalışır.

Çıxış edən digər natiqlər də narkotik vasitələrin fəsadlarından söz açaraq, ölkəmizdə narkomanlığa qarşı aparılan mübarizədən danışıblar.

Bildirilib ki, hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı qətiyyətli tədbirlər görülür, bu cinayət əməli ilə məşğul olan hər bir şəxs polis əməkdaşları tərəfindən saxlanılaraq məsuliyyətə cəlb edilir. Tövsiyə edilib ki, xüsusən gənclər belə hallardan uzaq durmalı, gələcəyin peşəkar kadrları kimi yetişmək üçün bütün bilik və bacarıqlarını təhsilə yönəltməlidir.



Narkotiksiz cəmiyyət üçün mübarizəsini ardıcıl şəkildə davam etdirən polisin fəaliyyətinin ictimaiyyət, əsasən də valideyn və təhsil müəssisələri tərəfindən aktiv formada dəstəklənməsinin zəruriliyi izah edilib, birgə səylərin müsbət nəticə verəcəyinə əminlik ifadə olunub.

Görüşün sonunda məktəblilərin maraqlandıran suallar cavablandırılıb və narkotiklərin zərərlərindən bəhs edən film nümayiş etdirilib.

*Nizam Həmidov,*
*polis kapitanı*

# Yol hərəkəti qaydalarını öyrədirik




Xətai rayonundakı 95 nömrəli tam orta məktəbdə Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin və 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "Uşaqlar yol hərəkət qaydalarını necə bilir?" mövzusunda intellektual yarış keçirilib.

Uşaqlar arasında yol hərəkəti təhlükəsizliyinin təbliği və yol mədəniyyətinin formalaşdırılması məqsədilə keçirilən tədbirdə BŞBPİ Dövlət Yol Polisi İdarəsinin hərəkətin təhlükəsizliyinin təşkili və ictimai qurumlarla əlaqə bölməsinin inspektoru, polis baş leytenantı Pərvanə Muradova, məktəbin müəllim heyəti, Uşaq-Gənclər İnkişaf Mərkəzinin əməkdaşları, uşaqlar və valideynlər iştirak edib.

Təhsil ocaqlarının ətrafında yol nəqliyyat hadisələri barədə danışan P.Muradova uşaqlara hərəkət təhlükəsizliyi ilə bağlı vacib tövsiyələr verib.

İştirakçılara mövzu ilə bağlı videoçarx təqdim edildikdən sonra, ibtidai sinif şagirdlərindən ibarət 4 komanda arasında keçirilən yarışda onların yol hərəkəti qaydaları ilə bağlı nəzəri bilikləri ekranda əks olunan suallarla yoxlanılıb. "Sərnişinlər" komandası I, "Nizamlayıcı" II, "Piyadalar" III, "Sürücülər" komandası isə IV yeri tutaraq diplomlar və təşəkkürnamə ilə təltif olunublar.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Payız sessiyası başa çatıb



Daxili işlər orqanlarının ali təhsilli hüquqşünaslarla, yüksək ixtisaslı, habelə fiziki cəhətdən sağlam, müasir texnologiyalarla işləyə bilən peşəkar kadrlarla təmin olunmasında Polis Akademiyasının əvəzsiz rolu var. Bu qocaman təhsil ocağında keçirilən tədbirləri, tətbiq olunan yenilikləri, bir sözlə kursantların nizam-intizamını, əldə etdikləri uğurları "Polis" olaraq həm izləmişik, həm də sadaladıqlarımızın təbliğinə geniş yer vermişik. Bu dəfə də ənənəmizə sadiq qalıb payız sessiyasının nəticələri barədə ətraflı məlumat almaq üçün Akademiya ilə əlaqə saxladıq.

Suallarımızı cavablandıran Tədris şöbəsinin rəisi, polis polkovniki Fərhad Əliyev 2022/2023-cü tədris ilinin payız imtahan sessiyasında kursantların biliyinin qiymətləndirilməsində obyektivliyin və şəffaflığın təmin olunması, həmçinin imtahanlarda baş verə biləcək neqativ halların qarşısının alınması məqsədilə Akademiya rəisinin müvafiq əmri əsasında apellyasiya və fənn komissiyalarının yaradıldığını vurğuladı. Müsahibimiz imtahanların gedişinə nəzarətçi-koordinatorlar tərəfindən ciddi nəzarət olunduğunu, imtahanların təsdiq olunmuş cədvəl üzrə fənlərin xüsusiyyətlərinə müvafiq qaydada şifahi və test üsulu ilə keçirildiyini də əlavə etdi. Bundan başqa, o, imtahanlara hazırlığın səmərəli təşkili üçün Akademiyanın kitabxanasının gücləndirilmiş iş rejiminə keçdiyini, müasir oxu zalları və elektron kitabxanada zəruri şəraitin yaradıldığını diqqətə çatdırdı.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Gənclər daxili işlər orqanlarında xidmətə həvəsləndirilir

Daxili İşlər Nazirliyinin Polis Akademiyasının və Sumqayıt Şəhər Polis İdarəsinin təşkilatçılığı ilə Sumqayıt şəhərində gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi məqsədilə təhsil müəssisələrinin 9-11-ci sinif şagirdləri ilə görüş keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsinə ehtiramlarını bildiriblər. Heydər Əliyev mərkəzində davam etdirilən tədbirdə ümummilli liderin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Polis Akademiyasının fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirildikdən sonra çıxış edən Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Fəqan Azadəliyev Daxili İşlər Nazirliyi və onun təşkilati strukturu olan polis orqanlarının 1918-1920-ci illəri əhatə edən fəaliyyəti dövründə böyük vətənpərvərliklə ilk müstəqil dövlətimizin milli maraqlarının müdafiəsində mühüm rol oynadığını, Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu 70 il ərzində də inkişaf etdiyini, ictimai asayişin qorunmasında yüksək nəticələr və zəngin təcrübə qazandığını bildirib.

Qeyd olunub ki, xüsusilə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikamızın iqtisadi, sosial və digər sahələrdə böyük uğurlar qazandığı 1970-1980-ci illər Daxili İşlər Nazirliyinin tarixinə ən mühüm mərhələ kimi düşüb. F.Azadəliyev onu da diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işləri və hərtərəfli islahatlar nəticəsində ölkəmiz dinamik inkişaf etmiş, sabitlik və təhlükəsizlik qorunub saxlanılmışdır. Bu göstərici və nailiyyətlərdə Sumqayıt Şəhər Polis İdarəsinin də öz töhfəsi vardır.









Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov bu gün ölkəmizdə ictimai-asayiş yüksək səviyyədə qorunduğunu diqqətə çatdırıb. O, Azərbaycan Polisinin vətəndaşların təhlükəsiz həyatının, asayişinin qorunması işinə bundan sonra da layiqli töhfələr verəcəyinə ürəkdən inandığını, təşkil olunan bu cür tədbirlərin dövrümüzün hərəkətverici qüvvəsi olan, ölkəmizi beynəlxalq elm, idman arenalarında uğurla təmsil edən gənclərin maarifləndirilməsində mühüm rol oynadığını xüsusi vurğulayıb.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasının nümayəndəsi Eldəniz Kazımov Akademiya haqqında şagirdlərə ətraflı məlumat verib və onların suallarını cavablandırıb. Daha sonra gənc polis əməkdaşları və kursantlar Akademiya ilə bağlı təəssüratlarını bölüşüblər.

*Anar Qafarov,*
*polis mayoru*

# Bölgələrarası yarış başa çatıb







Bu günlərdə DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə Göygöl Olimpiya İdman Komleksində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silahsız özünümüdafiə və əlbəyaxa döyüş növü üzrə bölgə polis orqanları arasında yarış keçirilib. Turnirdə 17 rayonun hər birindən 5 əməkdaş olmaqla 85 idmançı iştirak edib.

İki mərhələdən ibarət olan yarışda növbəti mərhələyə vəsiqə əldə etmək üçün komandalar əvvəlcə 5 nəzəri sualdan 4-nü cavablandırmalı olub. İlk mərhələni adlayan 50 əməkdaş 2-ci mərhələdə ən güclü idmançı adı uğrunda tatami üzərində mübarizəyə başlayıb. Azarkeşlərə həyəcanlı anlar yaşadan və gərgin idman mübarizəsi şəraitində keçən turnirin sonunda 73 kiloqram çəki dərəcəsində polis baş serjantı Səfəralı Məmmədyarov (Şamaxı RPŞ) I yeri, polis serjantı İlkin Qocayev (Qazax RPŞ) II yeri, polis serjantı Ələddin Talıbov (Gəncə ŞBPİ) III yeri, 80 kiloqram çəkidə polis baş serjantı Ruhlan Nəbiyev (Daşkəsən RPŞ) I yeri, polis serjantı Fərid İnqlablı (Goranboy RPŞ) II yeri, polis kiçik serjantı İlqar Rzayev (Gədəbəy RPŞ) III yeri, 87 kiloqramda polis baş serjantı Ruslan Zeynalov (Ağcabədi RPŞ) I yeri, polis kiçik serjantı Əhməd Ələkbərov (Gəncə ŞBPİ) II yeri, polis serjantı Qeysər Xəlilli (Tərtər RPŞ) III yeri tutublar.




Qaliblər münsiflər tərəfindən medal, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, yarışı İdman Cəmiyyətinin idman təşkili bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Zaur Məcidov, fiziki hazırlıq şöbəsinin inspektoru, polis mayoru Elşən İbişov, İdman Cəmiyyətinin Gəncə regional qurumunun baş inspektoru, polis polkovnik-leytenantı Hakim Nəzərəliyev və qurumun baş təlimatçısı, mülki işçi, Aykido üzrə 6-cı dan qara kəmər Ramil Yusifov idarə ediblər.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Onlar ədaləti, obyektivliyi qoruyurlar

Ali məktəb və ya dövlət qulluğuna qəbulla əlaqədər keçirilən imtahanların az qala özü qədər vacib bir prosesdə polis əməkdaşları da iştirak edir. Bu özünü, biliyi sınağa çəkilənlərin imtahan binasına yoxlanılaraq buraxılmasında göstərir. Polisin buradakı xidməti hamı üçün bərabər şərtlərin yaradılması ilə gələcəyin etibarlı əllərə, daha doğrusu, sınanmış beyinlərə əmanət edilməsi baxımından mühümdür. **DİN Əlahiddə Çevik Polis Alayının 9-cu Patrul Bölüyünün polis nəfərləri, polis serjantları Xəyyam Məmmədov, Yüksəl Sadıqov və Loğman Salmanov** bu günlərdə Nəsimi rayonu ərazisində keçirilən magistratura qəbul imtahanlarında xidmətə cəlb edilən belə əməkdaşlardandır. Onları, obrazlı ifadə ilə, imtahan keşikçiləri də adlandıra bilərik.

Həmsöhbət olduğumuz bu həmkarlarımız qeyd edirlər ki, imtahan binasına mobil telefon, hər hansı rabitə vasitələri, elektron cihazlar, elektron məlumat daşıyıcısı, kitab, konspekt, məlumat kitabçası və digər yardımçı vəsaitlər gətirmək qadağandır.

Onların da işi belə vəsaitlərin imtahana "yol tapmasına" imkan verməməkdir.

Xəyyam Məmmədov deyir ki, imtahan verənlərin yanında, adətən, valideynlər gəlir, iki-üç nəfər də onlara qoşulub həyəcanla bayırda gözləyirlər. Bu isə həmin ərazidə izdihama səbəb olur. Belə olan təqdirdə vətəndaşlarla profilaktik-izahat işləri aparmağa ehtiyac yaranır. Çalışırıq ki, buraxılış rejimi səmərəli təşkil edilsin və vaxtında başa çatsın.



İmtahan binasına köməkçi vasitələrin keçirilməməsinə prinsipal məsələ kimi baxdıqlarını söyləyən Yüksəl Sadıqov hesab edir ki, imtahana gələn gəncin, elm dalınca gedən vətəndaşın biliyi, savadı sınağa çəkilir: "Yeni ölkənin gələcəyi, kadr potensialı həmin an orada müəyyən edilir. Kimsə bu zaman qeyri-qanuni üsullardan istifadə etməyə müvəffəq olarsa, bu, sadəcə başqasının haqqına qəsb etmək deyil, həm də ölkənin gələcəyinə qəsddir".

Onun sözlərinə görə, bəzən buna cəhd edənlər olur. Məsələn, ötən il ali təhsil müəssisələrinin birində imtahana ayaqqabısının içində telefon keçirməyə çalışan bir tələbəni şəxsən aşkar edib.

Bu yerdə söhbətimizə qoşulan polis nəfəri, polis serjantı Rüfət Hacıyev imtahan vaxtı xoşagəlməz hadisələr baş verməsin deyə həmkarlarının xidmətə çıxmazdan əvvəl Alay rəhbərliyinin təyin etdiyi inspektorlar və bölük komandiri tərəfindən ciddi şəkildə təlimatlandırıldığını bildirir: "İmtahana gələnləri içəridəki polis əməkdaşı da xüsusi cihazla yoxlayır. Digər əməkdaşlar isə bayırda bu mərhələyə qədərki profilaktiki işi həyata keçirir, eyni zamanda, təhlükəsizliyi qoruyur və asayişə nəzarət edirlər".

Həmkarının sözünə qüvvət verən Loğman Salmanov həmçinin, avtopatrul xidməti ilə imtahan keçirilən ərazidə ictimai asayişin və təhlükəsizliyin gücləndirilmiş rejimdə qorunduğunu söyləyir: "Komandir heyəti avtopatrul xidməti ilə əraziyə nəzarət edir ki, hər hansı bir hadisə, insident baş verməsin. Baş verdiyi halda isə operativ müdaxilə edilsin".

Söhbətimizin sonunda bir həqiqəti özümüz üçün tam aydınlaşdırmışdıq. "Hiyləgərlər" üçün aşılmaz səddə çevrilən bu asayiş keşikçilərimiz həmin anlarda ədalət və obyektivliyin də keşiyini çəkdiklərinin yaxşı fərqindədirlər.

*R.Mehtiyev*

# Sığınacaqdan çağırış var...

**Bakı şəhər BPİ-nin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin əməkdaşları bir neçə sığınacaqda nəzarət-monitorinq tədbiri keçirib.**

Tədbirin əsas məqsədi sığınacaqların fəaliyyəti ilə tanış olmaq və ekstremal vəziyyətdə sığınacaqların müraciətlərinə polis əməkdaşlarının yerindəcə reaksiyasını yoxlamaq olub. İlk belə ziyarət Azərbaycan Uşaqlar Birliyinin “Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzi” və “Təmiz dünya” sığınacaqlarında təşkil edilmişdi.



Özünün feysbuk səhifəsində bununla bağlı “Təmiz Dünya” qadın və uşaq sığınacağının rəhbəri Mehriban Zeynalova qeyd edib ki, baş verə biləcək hər hansı bir hadisəyə nə qədər tez və ya gec reaksiya verilməsini öyrənmək üçün vətəndaş adı ilə ərazi polis bölməsinə zəng edilib. Zəng daxil olar-olmaz, polis əməkdaşları dərhal sığınacağa gəliblər.

Fevralın 17-də oxşar tədbir “Ümid yeri” və “Nur” uşaq sığınacaqlarında keçirilib.

“Nur” uşaq evinin direktoru Aynurə Xudiyeva qəzetimizə bildirib ki, dövlət qurumlarının qərarı ilə onların müəssisinə yerləşdirilən uşaqların yaxınları bəzən sığınacağa gəlib səs-küy salır, işçilərə təzyiq göstərməyə çalışırlar. Xüsusən, uşaqlarını diləndirən qaraçılar övladlarının sığınacaqda qalmasını pul itkisi saydıqlarına görə gəlib sığınacaqdakıları narahat edirlər. Polis əməkdaşlarının çağırışa vaxtında gəlməsi isə bu kimi arzuolunmaz halların qarşısını vaxtında almaq baxımından önəmlidir.

“Ümid yeri”nin direktoru Nigar Mənsimli də polisin sığınacaqlarla bağlı tədbirlərinin çox vacib və qənaətbəxş olduğunu qeyd edib. O, sığınacaqların təhlükəsizliyinin təmin edilməsinin həyati əhəmiyyət daşıdığını, onlara sığınan qadın və uşaqların qorunması ilə bağlı qayğıların sahə müvəkkilləri, yetkinlik yaşına çatmayanlarla iş aparan inspektorlar və post-patrul xidmətinin əməkdaşları tərəfindən qarşılandığını söyləyib. Onun sözlərinə görə, Bakı şəhər BPİ-nin həyata keçirdiyi nəzarət-monitorinq tədbiri yerlərdəki polis əməkdaşlarının çağırışa nə qədər çevik reaksiya verdiklərini bir daha təsdiq etmiş oldu.

*R.Mehtiyev*

## Mükafatlı sual rubrikası

**O, türk tarixini, mədəniyyətini tədqiq edən tanınmış alimdir. 60-dan çox sənədli filmin və 20-dən çox kitabın müəllifidir. Mütəmadi olaraq Avropa ölkələrində erməni probleminə həsr edilmiş elmi praktiki konfranslarda, seminarlarda iştirak etmişdir. 2005-ci ildə "Qondarma erməni soyqırımının 90 illiyi" münasibətilə Avstriyada kitab dərc etdirmişdir. Bu şəxs 2001-ci ildə Dünya azərbaycanlılarının I qurultayında iştirak etmişdir. 2006-cı il martın 13-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.**

***Söhbət kimdən gedir?***

**Vatsap: +99455-875-16-39**

## Çətin suala cavab tapıldı



Ötən həftə “Mükafatlı sual” rubrikamızda “Bu ölkədə poçt polisləri fəaliyyət göstərir. Bəs orada qətllə bağlı cinayət işlərini araşdıran polislər necə adlanır?” sualımıza doğru cavabı vatsap nömrəmizə Sumqayıt Şəhər Polis İdarəsinin Təşkilati-inspektor qrupunun baş inspektoru, polis mayoru Aqşin Mehdiyev göndərib.

O, söhbətin İtaliyadan getdiyini, cavabın isə “karabiner” olduğunu yazmaqla qalib olub.

# Əməkdaşımız polis-media münasibətlərindən danışıb

Hər il olduğu kimi bu il də “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində keçirilən ixtisasartırma (yenidənhazırlama) kurslarında “İnformasiya azadlığının təmin edilməsi. Polis-media münasibətlərini tənzimləyən qanunvericilik və onun tətbiqi.” mövzusunda Mətbuat Xidmətinin nümayəndəsi də iki saatlıq məruzə ilə çıxış edib. Şəhər, rayon, polis orqanlarının əməkdaşlarına polis-media, polis-vətəndaş münasibətlərinin qurulması, inkişafı, habelə cinayətkarlığa qarşı mübarizədə, həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin nəticələri haqda ictimaiyyətə açıqlanması fəaliyyətində şəffaflığın təmin edilməsi istiqamətində aparılan işlər barədə məlumat verilib. Nazirliyin mətbu orqanı “Polis” qəzeti, onun əlavəsi olan “Asayişin keşiyində” jurnalının hazırlanması və nəşri, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytı, sosial şəbəkə hesablarının iş prinsipi, onlardan istifadə etmə qaydaları da iştirakçıların diqqətinə çatdırılıb. Məşğələdə həmçinin, polis əməkdaşların kütləvi informasiya vasitələrinə müsahibə verməsi, müsahibəyə hazırlıq prosesi, ümumilikdə daxili işlər orqanlarının və Daxili Qoşunların fəaliyyəti ilə əlaqədar videomaterialların hazırlanması qaydaları barədə müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, DİN rəhbərliyinin təsdiq etdiyi illik plan-cədvəlinə əsasən müfaviq dövr ərzində daxili işlər orqanları əməkdaşları ilə ixtisasartırma (yenidənhazırlama) kurslarının keçirilməsi əməkdaşların fiziki hazırlığının yüksəldilməsi, bilik və bacarıqlarının, peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədi daşıyır.

*Teymur Əlizadə, polis mayoru*

# Həmkarımız bürünc qazandı



Beynəlxalq Cüdo Federasiyasının təşkilatçılığı ilə Tel-Əviv şəhərində Böyük Dəbilqə turniri keçirilib. Dünyanın 52 ölkəsindən 398 idmançının qatıldığı yarışda Əlahiddə Çevik Polis Alayının əməkdaşı, polis sıravisi Məmmədəli Mehdiyev də gücünü sınayıb.

90 kiloqram çəki dərəcəsində də mübarizə aparan həmkarımız ilk görüşündə türkmənistanlı Achydyyev Mamedali və koreyalı rəqibi Lee Namhoon üzərində ipponla qalib gəlib. Ardınca italiyalı Parlati Christiani da vazari ilə turnirdən kənarlaşdırıb.

Yarımfinalda gürcüstanlı Gviniashili Bekaya məğlub olan M.Mehdiyev braziliyalı cüdoçu Rafael Makedoyaya qalib gələrək bürünc medala sahib çıxıb.

*R.Vəliyev*

# 2023/2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasında “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair ELAN



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsilə 300 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində (11-ci sinifdə) oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək olan (2023-cü ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2023-cü ilin yanvar, aprel və iyul tarixlərində həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2023-cü il yanvar ayının 23-dən mart ayının 4-dək bazar günləri istisna olmaqla hər gün saat 1000-dan 1700-dək namizədin təhsil aldığı təhsil müəssisəsinin yerləşdiyi inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);***

***– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);***

***– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;***

***– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);***

***– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;***

***– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

Seçmə komissiyasının vaxtı barədə əlavə məlumat veriləcəkdir. Polis Akademiyası haqqında ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

**(012) 454-12-78,**
**(012) 590-98-16,**
**(012) 590-99-47.**

# Vəd verdi, əməl etmədi...

Gəncə şəhər sakini Cavid Həşimov 1-ci Qarabağ müharibəsində iştirak etməsini təsdiq edən veteranlıq vəsiqəsini düzəltmək və ona aylıq müavinət təyin etdirmək adı ilə Bakı şəhər sakini Habil Hüseynovdan 2 min manat alıb. Bir müddət keçdikdən sonra aldadıldığını bilən Habil kömək üçün Sabunçu Rayon Polis İdarəsinə müraciət edib.



Sabunçu RPİ-nin əməkdaşlarının keçirdiyi əməliyyat axtarış tədbirləri nəticəsində dələduzluqda şübhəli bilinən Gəncə şəhər sakini C.Həşimov saxlanılaraq İdarəyə gətirilib. Dindirilmə zamanı o, törətdiyi əməli etiraf edib. Zərərçəkmişə dəymiş ziyan tam ödətdirilib.

“Polis”in suallarını cavablandıran Sabunçu RPİ-nin müstəntiqi, polis mayoru Orxan Qnyazov bildirdi ki, aparılan araşdırma zamanı o da məlum olub ki, C.Həşimov müxtəlif vaxtlarda bir neçə şəxsi də "şirin" vədlərlə aldadaraq onlara xeyli miqdarda maddi ziyan vurub.

Yeri gəlmişkən, Habil Hüseynov müraciətinə həssas yanaşıldığına və ona dəymiş ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə DİN-ə ünvanladığı təşəkkür məktubunda Sabunçu Rayon Polis İdarəsinin şəxsi heyətinə minnətdarlığını bildirir.

*Ruhiyyə Əliyeva, polis kapitanı*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10060
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 19:00
Qiyməti 40 qəpik